**Astanada COP29-a hazırlıq çərçivəsində seminar keçirilir**

Qazaxıstan paytaxtında COP29-a hazırlıq çərçivəsində sentyabrın 16-dan 18-dək “İkiillik Şəffaflıq Hesabatının (BTR) hazırlanmasını sürətləndirmək üçün Mərkəzi Asiya, Cənubi Qafqaz və Şərqi Avropanın səlahiyyətlərinin artırılması” mövzusunda beynəlxalq seminar keçirilir.

AZƏRTAC xəbər verir ki, tədbir Qazaxıstanın və COP29-a sədrlik edən Azərbaycanın Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən təşkil olunub.

Seminarın təşkili və keçirilməsində Qazaxıstanın Beynəlxalq İnkişaf Agentliyi – “KazAID”, Azərbaycanın Beynəlxalq İnkişaf Agentliyi - AIDA, eləcə də UNFCCC, UNEP və UNDP katiblikləri tərəfdaşlar qismində çıxış ediblər.

Seminarda Qazaxıstanın ekologiya və təbii sərvətlər naziri Erlan Nısanbayev, Qazaxıstan Prezidentinin müşaviri Zülfiyyə Suleymenova, Azərbaycanın ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva və başqaları iştirak edirlər.

Beynəlxalq seminara Azərbaycan, Moldova, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Tacikistan, Serbiya və Türkiyə nümayəndələri qatılıblar.

İki ildən bir hazırlanan Şəffaflıq Hesabatı ölkələrin aşağı karbon siyasətinin inkişafını, eləcə də beynəlxalq öhdəliklərin icrasını əks etdirən sənəddir.

Bu tədbir beynəlxalq ekoloji öhdəliklər çərçivəsində regional əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində atılan mühüm addımdır.

**Elşən Rüstəmov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Astana**

**AZƏRTAC**
**2024, 16 sentyabr**